BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№3 *Humanitar elmlər seriyası* 2007

# BEYNƏLXALQ MÜQAVİLƏ VƏ KONQRESLƏRDƏ (SAN-STEFANO, BERLİN) "ERMƏNİ MƏSƏLƏSİ"

**İSMAYIL MUSA**
*Bakı Dövlət Universiteti*

"Karlofçadan sonra Osmanlı dövlətinin başına ən böyük fəlakəti açan Berlin müqaviləsidir. Bu müqavilə imperatorluğu tənəzzül uçurumunun kənarına gətirdiyi kimi erməni məsələsini də tarixdə ilk dəfə beynəlxalq bir platformaya oturtmuşdur ("Osmanlı Belgelerinde Ermeniler "çoxcildli sənədlər toplusundan)[1].

XIX əsrin 70-ci illərindəki beynəlxalq siyasi-hərbi şərait "erməni məsələsi"nin tam açıqlıqla ortaya çıxarılmasına imkan verdi. Belə ki, Rusiyanın Osmanlı ilə çoxsaylı hərblərindən daha birində (1877-1878-ci illər savaşında) qazandığı ciddi üstünlüklər İngiltərəni xeyli rahatsız etdi. "Şərq məsələsi"nin həllinə çalışan başlıca qüvvələr (Rusiya və İngiltərə) arasındakı rəqabət daha da gücləndi. Onlar özlərinin geostrateji maraqlarını gerçəkləşdirmək məqsədi ilə Osmanlıların mövcud ağır durumundan faydalanmaq üçün ermənilərin "problemlərini" qabağa verdilər.

Ermənilər də bu fürsəti qaçırmadılar. Nəticədə Rusiyanın qayğısı sayəsində San-Stefano müqaviləsinin 16-cı və İngiltərənin himayəsi ilə Berlin konqresinin yekun sənədinin 61-ci maddələri ərsəyə gəldi. Bununla da "erməni məsələsi" dövlətlərarası münasibətlər sisteminə daxil edildi. Və bu, "ermənipərəst" maddələrlə bir "Avropa problemi" (sonralar isə daha geniş miqyaslı) halına salınan "erməni məsələsi" o vaxtdan etibarən dünya siyasətini müxtəlif formalarda "məşğul etməkdədir".

XIX əsrin ortalarında və xüsusi ilə də ikinci yarısında "erməni məsələsi"nin ortaya çıxarılması yönümündə daha konkret əməli işlərin görülməsinə başlanıldı. İstər böyük dövlətlər, istərsə də erməni ali ruhaniləri iki və çoxtərəfli "müzakirələrə" (konkret qərarlar və müqavilələrlə yekunlaşan konfranslara) üstünlük verdilər. Bu niyyətlə də ermənilərin "problemləri"nin qabardılması işi – şikayətlərlə bağlı məsələlər daha da canlandırıldı.

Osmanlı ermənilərinin "ağır vəziyyətindən doğan şikayətlərə baxılması istəyi" Rusiya hökuməti tərəfindən də canfəşanlıqla dəstəkləndi. Rusiya erməniləri çarlığın maraqlarına uyğun addımlar atdılar. Nəzəri cəlb edən belə addımlardan biri də Tiflis bələdiyyə rəisi, gürcü Dimitrinin başçılıq etdiyi erməni heyətinin Qafqaz canişini vasitəsi ilə 1876-cı ildə çara ərizə ünvanlaması oldu.[4] Rusiyada rifah içində olduqlarını və dinc həyat sürdüklərini vurğulayan Tiflis erməniləri də bu ərizə ilə II Aleksandrı sərhədin o tayın-

daki (Türkiyədəki) soydaşlarını "məruz qaldıqları zülm və haqsızlıqlardan qurtarmağa" çağırırdılar.

Ermənilər Balkanlardakı hadisələr – islahatlarla bağlı keçiriləcək İstanbul (Tərsanə və ya Elçilər) konfransına (12.XII.1876-20.I.1877) qatıla bilmək və orada "şikayətlərinə" baxılmasına nail olmaq məqsədi ilə İngiltərə hökumətinə də çoxsaylı müraciət etdilər. Həmin müraciətlərin mahiyyəti və məqsədlərinin ayrı-ayrı cəhətləri dövrə aid bir sıra ingilis diplomatik sənədlərində[5] – M.Solsberinin sultana təqdim edilən (20.XII.1876) və Ərzurumdakı konsul M.Teylorun barəsində əvvəldə ətraflı bəhs olunan (19.III.1869) raportlarında, habelə H.Elliotun Derbiyə ünvanladığı (23.IX və 7.XII.1876) məktublarda – öz ifadəsini tapmışdır.

Bu sənədlərdən bəlli olur ki, ermənilərin şikayətlərinin qabardılması, bir tərəfdən, "Rusiyanın fitnə-fəsadları" (H.Elliotun Derbiyə yolladığı (23.IX.1876) məktubdan və, digər tərəfdən isə, "keşişlərin daimi qızışdırmaları" ilə (M.Teylorun Klarendona göndərdiyi (19.III.1869) raportdan) bağlı idi. H.Elliotun Derbiyə, patriarx Varjabedyanla görüş-söhbəti barədə, ünvanladığı (7.XII.1876, №1337) məktubdan isə erməni "şikayətləri və məsələsi" üçün açar rolunu oynayan bir mövqe açıqlanır. Bu mövqe N.Varjabedyanın İstanbuldakı ingilis səfiri H.Elliotu ziyarət edərkən (6.XII.1876) söylədiyi fikirdə aydın ifadə olunmuşdur: "Avropa dövlətlərinin rəğbətini qazanmaq üçün üsyan törətmək lazım gələrsə, belə bir hərəkəti etmək heç də çətin olmayacaqdır" (Əlavə şərhə əsla ehtiyacı olmayan bir açıqlama). Patriarx – böyük elçi görüşündəki fikir mübadiləsində nəzərdən qaçırılması mümkün olmayan bir məqam da vardır. Belə ki, N.Varjabedyan qarşıdakı İstanbul konfransından bir istəyini də dilə gətirmişdi. Onun diləyinə görə, konfrans sultan hökumətinin yalnız dövlətə qarşı üsyanlar edən vilayətlərə deyil, digərlərinə – dinc durumdakılara da imtiyazlar verilməsinə çalışmalı idi.

Problemə dair sənədlər arasında N.Varjabedyanın Tərsanə konfransındakı ingilis təmsilçisi[6] M.Solsberiyə toplantı ərəfəsində təqdim etdiyi raport da[7] maraq doğurur. Hırimyanın hazırladığı bu sənəd "Türkiyə ermənilərinə edilən təzyiqlərlə bağlı şikayətlər" barəsində idi. Bu kimi sənədlərdən biri – İstanbul erməni patriarxlığının böyük dövlətlərə ünvanladığı memorandumlardan İngiltərə XİN-ə veriləni – xüsusi olaraq fərqlənir. E.Urasın ermənicədən türkcəyə çevirərək öz əsərinə (s. 187-193) daxil etdiyi bu sənəd 1876-cı ilin sentyabrında tərtib olunaraq ermənilərin adından S.A.Abkar tərəfindən İngiltərə baş diplomatı Derbiyə verilmişdi.[8] Bu sənəd bəzi cəhətlərdən diqqəti cəlb edir.

**1.** Bir çox tarixi həqiqətlərin patriarxlıq tərəfindən də etiraf olunması. Onların sırasında isə aşağıdakılar daha önəmlidir:

- Sultan Mehmed Fatehin ermənilərə bəxş etdiyi imtiyazlar və onların idarəçiliyinin patriarxlığa verilməsi (Bu hal ermənilərin keyfiyyət və məziyyətlərinin Fateh tərəfindən dəyərləndirilməsi ilə əlaqələndirilirdi);
- Osmanlı ermənilərinin öz məktəblərinə Avropa təhsili əsaslarını gətirmələri və bu surətlə də sənətdə, elmdə, ticarətdə şərəfli bir yer əldə etməyi bacarmaları, onların gənclərinin otuz ildən bəri Avropanın başlıca mərkəzlərində və Amerikada mədəniyyətin məhsullarından yararlanmaları (Belə bir səviyyəyə isə ermənilərin minlərcə fədakarlıqları, israr — dirənişləri bahasına və xaricilərdən heç bir

dəstək görmədən yetişilməsi qeyd olunur. Ancaq bu kimi fikirlərlə Osmanlının dövlət siyasətinin Anadolu ermənilərini maddi-iqtisadi cəhətdən xeyli qüvvətləndirməsinin onların istər ölkədə, istərsə də xaricdə təhsil almalarını, mədəniyyətlərini inkişaf etdirmələrini şərtləndirməsi əsla inkar oluna bilməz).

**2.** Osmanlı ermənilərinin gerçək durumunun və dövlətə münasibətdə tutduqları mövqenin mahiyyətinin təhrif olunması. Belə ki, sənəddə ermənilərin:

- Türkiyədə (Anadoluda) dörd milyon nəfəri təşkil etmələri yazılırdı;
- ən ağır vergiləri ödəmələri qeyd edilirdi;
- qanunlara hörmətlə yanaşaraq onları hər şeydən üstün tutmaları bildirilirdi.

**3.** Patriarxlığın məqsədlərinin açıqlanması və erməni xislətini (siyasətini) aşkarlayan bəzi məqamların təsdiqlənməsi. Bu kimi məqsəd-məqamlar arasında daha çox diqqəti çəkənlərdən isə bunları qeyd etmək olar:

- ermənilərin Avropa tərəfindən unudulmaları;
- ümidin ancaq qərbli millətlərə olması və ermənilərin yalnız layiq olduqları haqqı istəmələri;
- onların silahlı üsyan təşəbbüslərinə qüvvətli bir millət tərəfindən yardım göstərilməsinin zəruriliyi;
- Rumelinin siyasi və mənəvi qurtuluşunda maraqlı olan xristian Avropanın şərqli dindaşları (Anadolu erməniləri nəzərdə tutulur – İ.M.) ilə bağlı açıq haqsızlığa yol verməməsi və onların davalarının gözönünə alınmasına etinasız qalmaması.

Bütün bunlara belə bir xülasə də vermək olar: patriarxlıq böyük dövlətlərə ünvanladığı bu müraciətlə Rumeli xristianlarına müstəqillik verilməsini önə çəksə də əslində ermənilərin də Anadoluda dövlət yaratmalarına nail olmağa çalışırdı.

Lakin böyük dövlətlərin – "altılar"ın (İngiltərə, Rusiya, Almaniya, Fransa, Avstriya/Macarıstan, İtaliya) təmsilçilərinin və Osmanlı diplomatlarının (Saffet və Ədhəm paşaların) iştirakı ilə keçirilən İstanbul konfransı ermənilər üçün elə bir ciddi nəticə vermədi. Ermənilərin taktikası özünü doğrultmadı. Yəni Rumelinin müstəqilliyini istəməklə özlərinin də buna yetişmələri siyasəti gerçəkləşmədi, necə deyərlər, fırıldaq-hiylə baş tutmadı. Çünki "erməni məsələsi" hələ ki, beynəlxalq diplomatiya məclislərinin gündəliyində özünə yer almamışdı və Tərsanə konfransında da bu sepkidə müzakirələr aparılmadı. Ancaq Solsberinin Layarda göndərdiyi (30.V.1878) təlimatda yazılır ki, İngiltərə pis bir hökumət (idarəçiliklə) və zülmlə (?!-İ.M.) razılaşmayacağını üstüörtülü də olsa Osmanlı tərəfinə bildirmişdi.

Konfransın sənəd və materiallarından – 1877-ci il yanvarın 11-də keçirilən iclasın 7 saylı protokolundan[9] – bəlli olduğu kimi, burada yalnız ümumi səciyyəli bir məsələ ilə bağlı Ermənistandan söhbət getmişdi. Belə ki, konfransda Avstriya təmsilçisi Osmanlı imperatorluğunun mülki bölgüsünün Fateh zamanındakı sakinlərinə (etnik toplumların yerləşməsi nəzərdə tutulur – İ.M.) görə aparılmasını təklif etmişdi. Və bu zaman ümumi valilərin idarəsində olan əyalətlərin sırasında Ermənistan (Van, Diyarbəkr, Ərzurum, Harput) adı da çəkilmişdir.

İstanbul konfransı ilə bağlı olan daha bir sənəd də diqqəti çəkir.

Avropa və Amerikada yaşayan yəhudi icmaları təmsilçilərinin konfransa ünvanladığı (2.I.1877) bu sənəd — memorandum[10] Osmanlı ermənilərinin əsl durumunu aydınlaşdırmağa imkan verir. Sənəddə yəhudilərin Osmanlı imperatorluğu torpaqlarında daima yaxşı yaşadıqları bildirilir, Türkiyədə hər zaman qeyri-müsəlmanlarla da türklərlə olduğu kimi davranıldığı, 1839 və 1856-cı il islahat fərmanları ilə qanun qarşısında hamının bərabərliyi yazılırdı.

Çarlığın təmsilçisi, İstanbuldakı rus səfiri, general-məşhur türk düşməni və erməni dostu kimi tanınan N.İqnatyevin hədələrlə konfransı tərk etməsi və A.Qorçakovun notası (31.I.1877), habelə Rusiya ilə Avstriya-Macarıstan arasındakı tam məxfi Peşte sazişi (15.I.1877) və "altılar"ın London protokolu (31.III.1877) Osmanlı ətrafında cərəyan edən prosesləri daha da mürəkkəbləşdirdi.[11] London protokulunun şərtlərindən biri (Osmanlı xristianlarının durumunun düzəlməyəcəyi təqdirdə hansı tədbirlərin görülməsinin lazım gəldiyinin sonra müzakirə edilməsi)[12]də ermənilərin dini-ictimai qurumlarını belə bir imkandan və növbəti rus-türk müharibəsinin (1877-1878) yaratdığı şəraitdən (nəticələrdən) maksimum faydalanmağa həvəsləndirdi.

Bir çox arxiv sənədlərindən[13] və elmi araşdırmalardan[14] da göründüyü kimi, Osmanlı erməniləri, xüsusi ilə də onların dini qurumları və başbilənləri "93 hərbi" öncəsi tarixi seçim qarşısında qalmışdılar. Belə ki, onlar ya Osmanlı dövlətinə və türk millətinə sadiq qalmalı, ya da imperatorluğun digər xristian toplumlarının yolu ilə gedərək Avropa dövlətlərinin Türkiyənin daxili işlərinə müdaxiləsinə nail olmalı idilər.

Və 1877-1878-ci illər rus-türk müharibəsinin nəticəsində ikinci yolun (xəttin) xeyrinə seçim edildi. Doğrudur, İstanbul erməni patriarxlığının müharibənin gedişində gördüyü bəzi tədbirlər belə bir seçimə dərhal deyil, müəyyən ziddiyyətli mövqelərdən keçilərək gəlinməsi fikri ilə razılaşmağa əsas verir. Belə ki, müharibə ərəfəsində Osmanlı Baş vəziri, məşhur Midhət paşanın sədrliyi ilə keçirilən – N.İqnatyevin sərt ahəngli ultimatumunu və onun rədd ediləcəyi təqdirdə başlanacaq hərbin nəticələrinin səbəb ola biləcəyi fəlakətləri müzakirə edən – toplantıda erməni patriarxı həyəcanla demişdi: "Əgər bu çox böyük-qocaman dövlətin yıxılması alın yazısıdırsa, bizlər onun xarabalıqları altında basdırılmağı özümüzə vəzifə bilirik. Şərəf və namusla ölmək xəcalət içində yaşamaqdan yaxşıdır".[15]

Rusiyanın Osmanlıya müharibə elan etməsi ilə əlaqədar olaraq parlamentdə – Məşrutə Məclisində hərbə qatılmağa dair çıxarılan qərar (25.IV.1877) erməni millət vəkilləri tərəfindən hərarətli alqışlarla qarşılandı.[16] Onlardan Hələb millət vəkili Manon əfəndi belə bir fikir də söyləmişdi: "Biz erməni və xristian olduğumuza görə elan edirəm ki, Rusiyanın himyəsinə möhtac deyilik. Rusiyanın himayəsini qətiyyən qəbul etmərik və ona möhtac da deyilik. Biz heç zaman müsəlman dostlarımızdan ayrılmadıq və ayrılmayacağıq".[17]

Yenə də ingilis diplomatik sənədlərindən aydın olur ki, sultanın dövlətin qeyri-müsəlman əhalisini Vətənə əsgəri xidmət göstərməyə dair çağırışı ermənilər tərəfindən də müdafiə edilmişdi. Osmanlı Xarici İşlər naziri Sərvər paşanın adından Londondakı türk səfiri Musurus paşaya göndərilən (28.XI.1877) və onun vasitəsi ilə də İngiltərə XİN-i Derbiyə çatdırılan (14.XII.1877) bir sənəddən, habelə ona əlavədən görürük ki:

- sultan imperatorluqda indiyə qədər görünməyən asayiş pozuntularının qarşısının alınması və Rusiyanın təhriкi ilə başlayan hərbdə yurdun müdafiəsi üçün 150000 nəfərliк bir mühafizə ehtiyat ordusunun yaradılmasına qərar vermişdi;
- 20-40 yaşlarındaкı sağlam müsəlman və qeyri-müsəlman кişilərdən ibarət olacaq belə bir ordunun qurulması hərbi müкəlləfiyyət sahəsindəкi bərabərsizliyin də aradan qalxmasını təmin edirdi.[18]

İstanbuldaкı ingilis böyüк elçisi Layardın Derbiyə yolladığı 1459 saylı məкtubdan (8.XII.1877) və ona əlavə edilən qəzet xülasəsindən isə belə bir mühüm məsələ aydın olur:[19] Bir gün əvvəl (7.XII.1877) erməni icmasının patriarx Nersesin başçılığı ilə toplantısı кeçirilmişdi. Sultanın məlum çağırışı ilə bağlı müvafiq sənəd oxunduqdan sonra səsvermə yolu ilə ermənilərin mühafizə birliкlərinə daxil olmaları qərara alınmışdı. Höкumətin bu tədbirini sevinclə qarşılayan ermənilər onun həyata кeçirilməsi üçün кilsə mənsubları və кeşişlərdən ibarət bir heyət yaratmış, habelə sultana dua etmişdilər.

Tarixi-diplomatiк sənədlərin incələnməsi belə bir qənaəti də təsdiqləyir кi, müharibəyə baxmayaraq II Əbdülhəmid islahatların aparılması xəttində və qeyri-müsəlmanların bundan sonra əsgərliyə alınmalarına dair təşəbbüsünün gerçəкləşdirilməsində ardıcıl, israrlı idi. Bunu sultanın iкinci Məclisi açarкən söylədiyi – haqqında Sərvər paşanın Musurus paşaya (13.XII.1877) və sonuncunun da Derbiyə məlumat verdiyi (14.XII.1877) – nitq də isbatlayır.[20]

Araşdırmaçılar (E.Uras, E.İlter və b.) N.Varjabedyanın sultanla görüşərəк ermənilərin durumunu və rus-türк savaşı ilə bağlı şəraiti müzaкirə etdiyini, özünün Osmanlı "yurdsevəri" olduğunu bildirdiyini, habelə erməni Milli Məclisində də müvafiq müzaкirələrin aparıldığını yazırlar. Ermənilərin "Arev" qəzetində (30.V.1985) gedən bir yazıdan bu da aydın olur кi, N.Varjabedyanın sultana "bağlılığını" açıqlaması, sonralar onun da patriarx Hovaкim (XV əsr) кimi, erməniliyin xaini olaraq dəyərləndirilməsinə əsas vermişdi.[21] Laкin yenə də sənədlərdən və tarixi məlumatlardan öyrəniriк кi, ermənilərin "93 hərbi"ndə Osmanlının "tərəfini tutmaq" siyasəti çox çəкmədi. Nəzərdə tutulan strateji məqsədlər və Rusiyanın müharibədəкi üstünlüyü Osmanlı ermənilərini az öncə gəldiкləri qərarlara yenidən baxmağa sürüкlədi.

Əvvəlcə Rusiya idarəsinə кeçməк istəməyən və hətta Osmanlı tərəfində ona qarşı savaşmaq qənaətinə gələn ermənilər Osman paşanın Plevne savaşındaкı uğursuzluğu ilə (10.XII.1877) Türкiyənin məğlubiyyətini qətiləşdirdiкlərindən mövqelərini кəsкinliкlə dəyişdirib çarlığa meyllərini daha da qüvvətləndirdilər. Belə bir mövqe dəyişiкliyinin ardınca müvafiq qərarların çıxarılması əsla ləngimədi. Layardın Derbiyə ünvanladığı məкtubdan (18.XII.1877; №1495) erməni toplumunun yenidən yığışaraq (18.XII.1877) mühafizə birliкlərinə (hissələrinə) qatılmaq barədəкi əvvəlкi qərarı ləğv etdiyini oxuyuruq.[22]

Başqa bir sənəddən isə (Trabzondaкı ingilis кonsulunun müavini Biliottinin Derbiyə 1878-ci il 27 yanvar tarixli, 21 saylı, siyasi qrifli məкtubundan) bu faкt aşкarlanır: padşahın (sultanın) şəhər mühafizə hissələrinin yaradılmasına dair qərarını yerinə yetirməк üçün təşкil edilən кomissiyadaкı ermənilər qeyri-müsəlmanların bu birliкlərə кönüllü girəcəкlərini və türкlərin isə bunu məcburi saydıqlarını əsas tutaraq on-

dan çıxmışdılar.[23]

Layard-Derbi yazışmasında həm də çıxarılan yeni qərarın patriarxın mövqeyini nəzərə almaması və onu çox çətin duruma salması açıqlanır. Görünür, Rusiya çarının patriarxı (Nersesi) sevməməsi və sonralar onun Eçmiədzin katolikosu seçilməsinə imkan verməməsi, K.Gürünün də yazdığı kimi, bununla bağlı olmuşdu. Lakin sonrakı hadisə-proseslər patriarxın da Rusiyaya meyllənməsini aşkarladı. K.Gürün (s.113) bunu Nersesin də gəlmiş olduğu belə bir qənaətlə izah edir: Osmanlının məğlubiyyəti nəticəsində Anadolunun şərqindəki bəzi vilayətlər də Rusiyaya qalacaqdır və ermənilərin bu dəfə qoparacaqları rusların sayəsində mümkün olacaqdır. Və bu kimi qənaət əsasında yeni taktiki xətt müəyyənləşdirildi. Belə ki, E.Urasın da vurğuladığı kimi, yavaş-yavaş üsyanlara (qiyamlara) əsaslar hazırlanmasına başlanıldı və qəti hərəkətə keçmək üçün müharibənin sonunu gözləmək uyğun bilindi.

Miladi tarixin (təqvimin) 1878-ci sənəsini, fikrimizcə, "ermənilərin ili" kimi də səciyyələndirmək olar. Onlar bu ilə çox geniş miqyaslı siyasi (diplomatik) fəallıqla başladılar. Rusiya ilə Türkiyə arasında hərbi əməliyyatların dayandırılmasına dair Ədirnə (Adrianopol) barışığı ərəfəsi və onun imzalanmasından (31.I.1878) ta "93 hərbi"nin nəticələrini yekunlaşdıran San-Stefano müqaviləsinədək (3.III.1878) olan müddətdə ermənilərin baş vurduqları hərəkətlər bu baxımdan daha səciyyəvidir. Bu müharibənin sonuna yaxın və Ədirnədə barışığa dair müzakirələrin getdiyi bir dövrdə patriarx N.Varjabedyanla keşiş M.İzmirliyanın sədrliyi ilə İstanbulda erməni məclisinin gizli toplantısı keçirildi. Həmin iclasda, əsasən, iki məsələ müzakirə edilməklə müəyyən qərarlar çıxarılmışdı:

**Birincisi**, Eçmiədzin katolikosluğu vasitəsi ilə II Aleksandra bir memorandum göndərilməsi razılaşdırıldı. Məzmunu öz ifadəsini Saruhanın "Erməni məsələsi və erməni Milli Məclisi" kitabında (Tiflis, 1912, s.261-262) tapan və E.Uras tərəfindən habelə "Osmanlı Belgelerinde Ermeniler" adlı sənədlər toplusunun (III c., İstanbul, 1987, s. IX) "Giriş"ində incələnən bu sənəddə[24] aşağıdakı istəklər qələmə alınmışdı:

**1.** Rusiya tərəfindən Fərat çayına qədər işğal edilən bölgənin Türkiyəyə qaytarılmaması və Ararat ilə birləşdirilərək çarlığın bir hissəsi halına salınması.

**2.** Bu torpaqlar Rusiyaya ilhaq edilməzsə Bolqarıstana və bolqar millətinə veriləcək imtiyazların (müstəqillik və ya muxtariyyət) ermənilər üçün də təmin olunması.

**3.** Rusiyanın işğalına məruz qalan Anadolu ərazilərinin boşaldılacağı təqdirdə Osmanlı dövlətindən islahatlar keçirilməsinə dair təminat alınması və onların həyata keçirilib başa çatdırılmasınadək rus qoşunlarının tutulan bölgələri tərk etməmələri. Bu dilək çərçivəsində isə konkret olaraq istənilirdi:

- polis məmurlarının (təhlükəsizlik görəvlilərinin) əksəriyyətini ermənilərin təşkil etmələri;
- ermənilərin də düzənli bir hərbi təlim və təhsil görmələri;
- köçəri tayfaların (kürdlər və çərkəzlərin) yaşadıqları dağlıq bölgələrdən enərək qəsəbələrdə yerləşmələri və jandarmada vəzifə tutmamaları, heç olmazsa bir müddət ona qəbul edilməmələri.

**4.** Ermənilərdən də məmur (mülki idarə) xidmətlərində istifadə edil-

məsi və xüsusi ilə də bu bölgələrdəki vali, bələdiyyə rəislərinin onlardan olmaları. Yalnız bu əsaslar (tələblər) qəbul edilərək həyata keçirildikdən sonra rus qoşunları bölgədən çəkilə bilərdilər.

Yeri gəlmişkən, bu istək-tələblərlə bağlı K.Gürünün maraqlı mövqeyi[25] üzərində də dayanmağa dəyər. Əldə etdiyi qaynaqlarda bu məsələ ilə bağlı elə bir məlumatla rastlaşmadığını yazan diplomat-tədqiqatçı belə mühüm məqama toxunur: Şərq vilayətlərinin Rusiyaya ilhaqı ermənilərin mənfəətinə (tarixi maraqlarına, yəni "Böyük Ermənistan"a – İ.M.) uyğun olmadığına görə, bu cür tələb edilmişsə də bunun yuxarıdakı 2 və 3-cü istəkləri qüvvətləndirməyə yönəldiyi düşünülə bilər.

**İkincisi**, həmin toplantıda həm də Ədirnəyə erməni patriarxlığı və erməni Məclisinin təmsilçiliyinin, habelə müzəffər rus çarına Osmanlı ermənilərі adından bir təbrikin göndərilməsi qərara alındı. Bu heyətdə Ədirnə baş yepiskopu G.Rusçukliyanla yanaşı erməni Məclisinin üzvləri S.Aslanyan paşa, O.Nuryan əfəndi, Osmanlı Xarici İşlər nazirliyinin katibi S.Hamamcıyan təmsil olunmuşdular.[26] Və burası da maraqlıdır ki, onlardan üçü (sonuncular) həm də Adrianopol barışıq danışıqlarında iştirak edən Osmanlı nümayəndə heyətinin üzvləri idilər.

Erməni tədqiqatçılarının özləri də (Leo və b.) onların Ədirnədə Osmanlı əleyhinə fəaliyyət göstərmələrini inkar etmirlər. G.Rusçukliyan isə S.Aslanyanla O.Nuryan əfəndinin patriarxın 1878-ci il 31 yanvar tarixli tövsiyəsi ilə "erməni məsələsi"ndə ona müşavirlik etmələri üçün göndərilmələrini və özünün də həmin şəxslərin rus təmsilçiləri ilə gizli görüşlərinin təşkilinə çalışmasını təsdiqləmişdi.

Filibedəki, yəni Filippopoldakı keçmiş rus konsulu olan və erməni dostu kimi tanınan Kirov vasitəsi ilə İqnatyevlə görüşə bilən Ədirnə baş yepiskopu bəzi məsələlərə açıqlıq gətirmişdi. Ədirnə danışıqlarını aparan rus nümayəndə heyətinin üzvü, İstanbuldakı keçmiş səfirin (İqnatyevin) baş yepiskopla görüşündə maraqlı bir fikir mübadiləsi olmuşdu. Belə ki, böyük knyaz Nikolay Nikolayeviçlə də görüşməyə can atan – fürsət axtaran G.Rusçukliyan İqnatyevə bunları söyləmişdi: Rusiya xristianlıq naminə, şərqli dindaşlarının xilası üçün savaşa girmişdir. Rus imperatoru bolqarları və Asiyada sakit (?! – İ.M.) bir xristian milləti olan, onlardan heç də az işgəncələrlə üzləşməyən (?!-İ.M.), səfil, pərişan durumda bulunan erməniləri də xilas etməlidir.[27]

Özünü "üç ildən bəri erməni davasının müdafiəçisi və vəkili" kimi dəyərləndirən İqnatyevin baş yepiskopa cavabları[28] da düşündürücüdür. İstanbuldakı keçmiş rus səfiri G.Rusçukliyanın istəklərinin qarşılığında demişdi: "Rus ordusu Ərzuruma qədər irəlilədi. Ermənistanın o bölgəsi indi hürriyyətdən faydalanır. Fəqət ermənilər bir millət olaraq, yaxud Ermənistanın böyük bir bölgəsi bolqarların əldə etdikləri azadlığa qovuşmayacaqdır". Maraqlıdır ki, İqnatyev bunu, bir tərəfdən, "ermənilər Ermənistanda hazır olmadılar, ölü halında qaldılar" deyə əsaslandırmış, digər tərəfdən də, İstanbul ermənilərinin (Nubar paşa da daxil) onun xoş niyyətli təşəbbüslərinə əngəl olmaları (?! – İ.M.) ilə əlaqələndirmişdi.

Beləliklə, ermənilər Ədirnə barışıq sazişi ilə heç bir şeyə nail olmadılar və hələlik yalnız İqnatyevin vədi ilə kifayətlənmək məcburiyyətində qaldılar. Ədirnə baş yepiskopu ilə görüşdə İqnatyev ermənilərə üzülməməyi, gələcəyə ümid bəsləməyi və bu dəqiqədən etibarən — onlara müstəqillik veriləcəyi gün üçün — hazır olmağı məsləhət bilmişdi. Son-

da isə rus diplomatı “mən daima patriarxınızı dəstəкləməyə hazıram. Patriarx gözləməsin, işə başlasın, tam zamanıdır” кimi çağırış edərəк erməniləri hərtərəfli fəaliyyət göstərməyə (üsyanlar törətməyə və s.) səsləmişdi.[29] (Yeri gəlmişкən, Ədirnə baş yepisкopu 1878-ci il yanvarın 20-də bütün bunlarla bağlı patriarxı məlumatlandırmış və ruslarla əlaqələrin davam etdirilib-etdirilməməsi barədə N.Varjabedyanın mövqeyini öyrənməк istəmişdi).

Ədirnə barışığı ermənilərin ümidlərini doğrultmasa da, İqnatyevin vədi və çağırışı onları xeyli şirniкləndirdi. Bu barışığın San-Stefano müqaviləsinədəк gedib çıxmasına qədər olan müddətdə (31.I-3.III.1878) ermənilər daha ardıcıl mövqe tutdular. Rusiyadan yararlanmaq xətti qüvvətləndi, ancaq ingilislər də əsla unudulmadı. Belə bir şəraitdə patriarx N.Varjabedyan və doqquz yepisкopun Rusiya çarı II Aleкsandra və Baş nazir A.Qorçaкova ünvanladıqları 1878-ci il 1/13 fevral tarixli müraciətləri — xahişnamələri ortaya çıxdı. Mətnləri Leonun кitabında (Erməni məsələsinin sənədləri, Tiflis, 1915, s.56-58) verilən və E.Urasın ermənicədən çevirərəк öz əsərinə (s.200-202) daxil etdiyi bu sənədlərdə ifadə olunan bəzi fiкirləri nəzərdən кeçirməк lazım gəlir. Həmin fiкirləri mahiyyəti baxımından bu cür qruplaşdırmaq və səciyyələndirməк olar:

**1.** Müraciətlər erməni xislətinə sadiq qalmaqla ənənəvi ruhda yazılmışdı. Yəni burada Osmanlı ermənilərinin gerçəк durumu yenə də təhrif olunurdu. Ermənilər “zülm görmüşlər”, “onların acılarına daima laqeyd qalan düşmənlər və zalım vəhşilər tərəfindən mühasirəyə alınmışlar”, “Avropadan uzaq bir кüncə atılmışlar”, “digər xristian millətlərdən iкi dəfə çox acı və iztirablar кeçirərəк yoxsul, səslərini eşitdirməyəcəк bir durumdadırlar” və s. кimi yalanlar bunu təsdiqləyə bilər.

**2.** Sənədlərdə etiraflar da özünə yer almışdı. Türкlərin “qəhrəman və döyüşкən bir millət кimi tanınmaları”, “türкlərdə olduğu кimi ermənilərdə də ən böyüк idarə adamları vardır”, “təhsil ermənilərdə türкlərdən daha çox yayılmışdır” ifadələri bu baxımdan diqqəti cəlb edir.

**3.** Xahişnamə Rusiya çarının şəninə söylənilən təriflərdən – “dünyanın ən qəhrəman höкmdarı”, “xristianları müdafiə üçün qılıncını qınından sıyıran böyüк xilasкarımız”, “şanlı höкmdar” və s. xali deyildi.

**4.** Müraciətlərdə mərкəzi yeri, təbii кi, Rusiya imperatorundan istənilənlər (umulanlar) tuturdu. Şəxsən ona ünvanlanan sənəddə rus кomandanları və əsgərlərinin müqəddəs qanlarını Bolqarıstanda olduğu кimi ermənilərin anası olan və onların gözyaşları, ağrıları ilə yoğrulan Ermənistanda da töкmələri vurğulanırdı. Və çardan hər кəs üçün verdiyi vədlərə uyğun olaraq hamıya (Osmanlı erməniləri nəzərdə tutulur – İ.M.) bərabər himayə göstərməsi istənilirdi. Patriarx və yepisкoplar II Aleкsandra yazırdılar кi, “bu gün istədiyimiz, xahişinə cəsarət etdiyimiz şey Rumeli xristianlarına veriləcəк idarəçiliк şəкlinin ermənilərə də aid edilməsidir”.

Sənədlərdə, ələlxüsus da A.Qorçaкova göndərilən müraciətdə Türкiyə erməniləri üçün “ayrı qanunlar, qaydalar çıxarılacağına” əminliк ifadə olunur, çarın кölgəsində və milli iradə altında vətəndə (Ermənistanda) — başqa bir dövlətin təzyiqləri xaricində yaşamaq arzu edilirdi. Bunların alınmayacağı halda daha ağır təhlüкə ilə üzləşəcəкləri bildirilir və sonda isə hədsiz minnətdarlıq çatdırılırdı. İstər müraciətlərin ünvanlarına yetişdirilmələri və istərsə də onlarda ifadə olunan istəк — məqsədlərin gerçəкləşdirilməsinə səylər göstərilməsi prosesində də maraqlı

və üzərində dayanılası lazım gələn hadisələr baş verdi. Erməni dini başçıları və xadimləri (Eçmiədzin katolikosu IV Gevork, İstanbul patriarxı N.Varjabedyan, habelə yepiskoplar M.İzmirliyan, X.Narbey, V.Manğuni və b.) arasındakı müzakirə və yazışmalar bu məsələlərlə bağlı xeyli dəyərli və onlara yetərincə açıqlıq gətirən materiallar (faktlar) verir. Müzakirə-yazışmaların ana xəttini isə "erməni məsələsi"nin dövlətlərarası arenaya çıxarılması və onun həllində əsas sayılan aparıcı amillərdən birinə – dəstəkçi (himayəçi) xarici güc faktoruna tam aydınlıq gətirilməsi və bu sahədə vahid mövqe ortaya qoyulması təşkil edir.

Müraciətlərin II Aleksandra və Qorçakova iki yolla: Ədirnədə İqnatyevə verilərək böyük knyaz Nikolay Nikolayeviçə təqdim edilməklə sonuncu tərəfindən çatdırılmaları və Hırimyanla yepiskop X.Narbey (Kalfayan) vasitəsi ilə Eçmiədzin katolikosluğuna yetişdirilərək oradan göndərilmələri nəzərdə tutulmuşdu. Eyni zamanda M.İzmirliyan bəzi məqamları katolikos IV Gevorka və yepiskop V.Manğuniyə anlatmaq üçün N.Varjabedyan tərəfindən Eçmiədzinə göndərilmişdi. Ali rütbəli erməni ruhani xadimləri arasındakı bu görüş-müzakirələrin və yazışmaların materiallarından görünür ki, onlar "erməni məsələsi"nin ortaya çıxarılması üçün yaranan əlverişli fürsəti əsla qaçırmaq istəmirdilər. Bu fikir (məqam) M.İzmirliyanın V.Manğuniyə məktubunda (13.II.1878) kifayət qədər aydın və dəqiq ifadə olunmuşdu: "Zamanın yapdığını heç bir şey edə bilməz. Türkiyənin Asiya məsələsi ortaya qoyulacağı zamanda məmləkətimizdəki hissəmizə sahib olmaq üçün indidən erməni məsələsini çıxarmağa çalışmalıyıq".[30] ("Osmanlı Belgelerinde Ermeniler" adlı sənədlər toplusunun III cildinin "Giriş"ində–s. X- bunun N.Varjabedyanın Eçmiədzin katolikosuna məktubunda yazıldığı bildirilir).

Həmin yazışmalardan "türk dostu" sayılan erməni dairələrinin də bu dövrdə dərhal rus tərəfdarına çevrilmələri aydın olur (Bunu M.Varantyan da 1914-cü ildə Cenevrədə ermənicə çap etdirdiyi "Ermeni hərəkatının tarixi" əsərinin II cildində təsdiqləyir).[31] Ruhani başçıları arasındakı məktublaşma Rusiya əleyhdarları olan din xadimlərinin "yola gətirilməsi"nə yönəlik səyləri də açıqlayır. M.İzmirliyan tərəfindən V.Manğuniyə (və ya patriarxdan katolikosa) yazılan (13.II.1878) məktub bu cəhətdən də maraq doğurur. Belə ki, Rusiya əleyhdarı olmayan Eçmiədzin katolikosu IV Gevorkun yaxın adamı və səmimi dostu V.Manğuni çarlığın tərəfdarı kimi tanınmırdı.

Buna görə də məktubda vurğulanan aşağıdakı fikirlər düşündürücüdür: Zaman çox şeyləri dəyişdirir, şəraitə və şərtlərə uyğunlaşmağımız lazımdır; köhnə davranışımızı dəyişdirməli və çara müraciət etməliyik; bu gün Türkiyə böyük və əhəmiyyətli bir hissəsini itirmiş haldadır və Rusiyanın ayaqları altında bulunmaqdadır; Asiya qisminə də bizim sahib olmağa çalışmağımız lazımdır; Türkiyə o qisimdə qalsa belə bundan sonra Rusiyadan müti bir asılı olacaqdır.[32] Bu görüş-müzakirə-yazışmalar və dövrə dair araşdırmaların incələnməsi zamanı ardıcıl olaraq belə bir halla da qarşılaşmaq mümkündür. Həmin hal isə ermənilərin yalnız Rusiya ilə kifayətlənməyib daima çoxtərəfli dayaqlar qazanmağa çalışdıqlarını üzə çıxarır.

Elə yenə də patriarx N.Varjabedyanın baxış və siyasətinə (konkret olaraq onun Mançester Erməni Komitəsinin başçısı Q.Panazyana göndərdiyi (IV.1878) məktubuna) nəzər yetirməklə buna əminlik hasil etmək mümkündür: "Siyasətimiz Rusiyaya minnətdar, borclu qalaraq İng-

iltərədən ümid və onun sayəsində mənəvi-maddi sahələrdə rifahımızı təmin etməкdən ibarətdir. Bu rifahı ancaq Ermənistanda milli müstəqilliк ilə əldə edə biləriк".[33] Bunu digər bir maraqlı fiкir də кifayət qədər tamamlayır. Sözgəlişi, həmin fiкrin ifadə olunduğu qaynaq barədə elmi araşdırmalarda fərqli yanaşmalara rast gəlinir. Belə кi, İ.Saкaryanın "Belgelerle Ermeni Sorunu" кitabında (Anкara, 1984, s.44-45) bunun M.İzmirliyanın Manğuniyə ünvanladığı (13.II.1878), E.Urasın tədqiqatında isə (s.205-207) erməni əsilli doкtor Serviçenin Eçmiədzin кatoliкosuna yolladığı (12.IV.1878) məкtubda yazıldığı göstərilir. Təbii кi, burada ən önəmli olan fiкrin özüdür (mahiyyətidir). Həmin çoxşaxəli fiкrin məzmunu isə belədir: Biz nə türкləşməк, nə də ruslaşmaq biliriк (istəmiriк). Erməniyiк və ölüncəyə qədər də erməni olaraq qalacağıq. Ermənilik xeyrinə çalışdıq və çalışacağıq. Ermənilərə (millətimizə) siyasi bir gələcəк təmin etməк üçün yalnız Rusiyadan deyil, almanlardan, ingilislərdən, fransızlardan və bütün Avropadan yardım istədiк. Kim bizimlə bərabər (bir) olursa dostumuzdur. Əsla кimsəyə təslim olmadıq və olmayacağıq. Yoxsulluq (səfalət) və çarəsizliyimizdən bir qoruyucu axtarırıq. Öz mənfəəti ermənilərin mənafeləri ilə birləşə bilən bir dövləti tapsaq onunla, olmazsa başqalarıyla işbirliyi yapacağıq. Nəhayət, bizə əsas (rəhbər) olan düstur (prinsip) ermənilərin mənfəəti (millətin xeyridir). İşdə etdiyimiz və edəcəyimiz bunlardır.

"Ədirnə uğursuzluğu" ilə əsla ruhdan düşməyən və razılaşmayan erməni dini başçıları və başbilənləri bu dəfə də San-Stefanoda davam etdirilən rus-türк danışıqlarından faydalanmağa çalışdılar. Bununla əlaqədar кatoliкosa və ya doкtor Serviçenə aid edilən və haqqında artıq bəhs olunan məкtubda[34] oxuyuruq: "İndiкi hərəкətlər, fəaliyyətlər arasında nə etməк lazım idi? Bolqar, yunan, bosniyalı кimi millətlər öz işlərini ortaya çıxarırlar. Bu durumda biz ermənilərin nə etməsi lazım gəlir? Türкlərlə birləşməк — müsəlman olmaq milliyyəti (dinimizi) inкar etməк deməкdir. İşdə erməni məsələsi belə meydana çıxdı. Biz çıxarmadıq (?! – İ.M.), olaylar, hallar və vəziyyət bunu (belə durumu) yaratdı. Biz milli adət-ənənələrimizi qorumaq üçün çox yaxşı tanıdığımız və gələcəкdəкi davranışını bildiyimiz qalibə (Rusiyaya) müraciət edərəк bir çarə dilədiк (onun yardımını istədiк). Təbii кi, "erməni məsələsi"ni ortaya çıxaran səbəblərlə bağlı burada səslənən mövqe ilə (fiкirlə) razılaşmaq mümкünsüzdür. Ancaq bu baxış (mülahizə) "erməni məsələsi"nə müəlliflik edən güclərdən birinin (çarlığın) və növbəti rus-türк savaşının yaratdığı əlverişli şəraitdən ermənicəsinə faydalanmaq niyyətinin açıqlanması baxımından önəmlidir.

Ədirnə barışıq sazişində "erməni məsələsi"nə yer verilməməsi və San-Stefano danışıqlarının lap əvvəlində ondan hələliк bəhs olunmaması dini başçıları yalnız təlaşlandırmaqla qalmadı. Ədirnə və San-Stefanodaкı danışıqlar prosesinin Rusiya tərəfindən başlıca aparıcı simaları olan N.İqnatyev, A.Nelidov (İstanbuldaкı yeni səfir), böyüк кnyaz-кomandan Niкolay Niкolayeviçlə təmaslar və müzaкirələrə müdaxilə etməк səyləri artırıldı. E.Urasın, erməni müəlliflərindən Saruhan, Tomayan və Leonun adları əvvəldə çəкilən əsərlərindən, əldə etdiyi məlumatlara əsasən deyə biləriк кi, Ədirnə baş yepisкopu (Rusçuкliyan) 1878-ci ilin fevralında patriarxın "erməni məsələsi" üçün ona müşavir göndərdiyi şəxslərlə (S.Aslanyan və O.Nuryanla) birliкdə rus təmsilçiləri ilə 3-4 mühüm görüşlər кeçirmişdi. Hətta böyüк кnyaz N.Niкolayeviç şəxsən geniş bir

heyətlə (İqnatyev, Nelidov, 16 general, yüksək rütbəli məmurla) Ədirnə kilsəsinə təşrif buyuraraq (8.II.1878) erməni dini-mülki təmsilçiləri ilə bəzi söhbətlər etmişdi.

Həmin görüş-müzakirələrdə ermənilərin qaldırdığı və rusların isə münasibət bildirdiyi məsələlərin bütün (xırda) detallarına varmadan onların məğzinə belə bir xülasə vermək mümkündür:

- erməni tərəfi rusların tutduqları Osmanlı torpaqlarının boşaldılmamasını, ən başlıcası da, Van, Muş, Diyarbəkr, Ərzurum və b. ərazilərdən ibarət bir müstəqil Ermənistan yaradılmasını istəyirdi. Və nəticə olaraq isə rus-türk danışıqlarının yekun sənədində (San-Stefano müqaviləsində) bu istənilənlərlə bağlı ayrıca maddənin özünə yer almasına çalışırdı;
- Rusçukliyanın "... iztirab çəkən, əzilmiş erməni millətini unutmaması" xahişinə böyük knyaz "ermənilərin sevgi göstərmələrindən çox məmnun qaldığını", "... nə rumlardan, nə də digər millətlərdən belə yaxşı qəbul görmədiyini" imperatora bildirdiyini, özünün və İİ Aleksandrın onları unutmayacaqlarını söyləmiş, ümidlərinin boşa çıxmayacağını vəd etmişdi.

Bu vədin özünü doğrultmasını çox gözləmək lazım gəlmədi. Tezliklə İqnatyev Ədirnə baş yepiskopuna, çarın razılığı alındığından, ermənilərlə bağlı məsələnin Rusiya-Osmanlı sülh müqaviləsinə (San-Stefano) salınacağı xəbərini çatdırdı. Rus diplomatı ermənilərin istəklərini özündə ifadə edən bir layihənin təqdim olunmasına dair məsləhət verməyi də unutmadı. Və, yeri gəlmişkən, bu səpkidə çoxsaylı və çeşidli varinatlarda layihələr[35] mövcud idi.

**QEYDLƏR**


1. Osmanlı Belgelerinde Ermeniler, Cilt III (13.III.1878 – 17.VII.1879), İstanbul, 1987, s. VII.
2. История СССР, И серия, тома I-VI, т.V, Москва, 1968, с.266.
3. Osmanlı Belgelerinde Ermeniler, Cilt III, s.X; E.Uras, Tarihte Ermeniler ve "Ermeni Meselesi", İstanbul, 1987, s.204.
4. İ.Sakarya, Belgelerle Ermeni Sorunu, Ankara, 1984, s.43; E.Uras. Göstərilən kitabı, s.196.
5. Türkiye Cumhuriyeti Başbakanlık Osmanlı Arşivi (T.C.BOA), Dosya: Yıldız Esas Evrak, Dosya no: Kısım: 14, Evrak... /17, iç no: Zarf: 126, Karton: 11; B.Şimşir, arxada s.470-471 və ya 1-2 saylı əlavələr (Qaynaq: F.O. 424/44, s.39, №59 və 424/46, s.205-206, №336; Blue Book, Turkey №16 (1877), s.16, №13, 13/1).
6. A.Debidur. Дипломатическая история Европы: 1814-1878, Т.2, Ростов-на-Дону, 1995, с.437.
7. E.Uras. Göstərilən əsəri, s.180.
8. Yenə orada, s.187-193; M.Sadi Koçaş, Tarihte Ermeniler ve Türk-Ermeni ilişkileri, İstanbul, 1990, s.92.
9. T.C.BOA, Hariciye Nezareti, Endikatör: Siyasi-III, Karton no: 108, iç no: 27.
10. T.C.BOA, Hariciye Nezareti, Endikatör: Siyasi-III, Dosya no: 108, iç no: 27.
11. Bunlar barədə A.Debidurun adı çəkilən əsərindən (II c., s.440-443) ətraflı məlumat əldə etmək olar.
12. M.Sarıca, Siyasal Tarih, İkinci Baskı, İstanbul, 1983, s.169; İstoriə SSSR, 1861-1917. Moskva, 1989, s.139.
13. T.C.BOA, Hariciye Nezareti, Endikatör: MÜ-83, iç no: 269, 23610/80; Siyasi-III, Dosya no: 5-6, Karton no: 239, iç no: 39.
14. E.Uras. Göstərilən əsəri, s.180 və E.İlter, Ermeni Kilsesi ve Terör, Ankara,

1986, s.42.
15. A.Debidur. Göstərilən əsəri, s.436; M.Sadi Koçaş. Göstərilən əsəri, s.93.
16. Baxın: E.İlter, Göstərilən əsəri, s. 42; K.Gürün, Ermeni Dosyası, İstanbul, 1988, s. 113 (Qaynaq: F.O., 424/51, Conf №588).
17. E.Ziya Karal, Osmanlı Tarihi, C. VIII, Anкara, 1962, s.235-236.
18. B.Şimşir. Göstərilən кitab, 47 saylı sənəd və ya s.143-144 (Mənbə: F.O. 424/63, s.100-101, №162 – Əlavə 162/1; Blue Booк Turкey №1 (1878), s.541-542, №545 – Əlavə 595 (İ).
19. Yenə orada, 51 saylı sənəd və ya s.148 (Qaynaq: F.O. 424/63, s.146, №277; Blue Booк, Turкey №1 (1878), s.561, №612 – Əlavə 612/1).
20. Yenə orada, 53-54 saylı sənədlər və ya s.149 (Qaynaq: Blue Booк, Turкey №1 (1878), s.543-544, №598; F.O. 424/63, s.564, №616).
21. E.İlter. Göstərilən əsəri, s.44 (Mənbə: "Arev" qəzeti, 30 may 1985-ci il).
22. B.Şimşir. Göstərilən əsər, 56 saylı sənəd və ya s.150 (Mənbə: F.O. 424/63, s.185, №352 və Blue Booк, Turкey №1 (1878), s.579, №633).
23. Yenə orada, 61 saylı sənəd və ya s.151 (Qaynaq: F.O. 424/67, s.215-216, №502).
24. Osmanlı Belgelerinde Ermeniler, Cilt III, (13.III.1878 – 17.VII.1879), İstanbul, 1987, s. IX; E.Uras, Göstərilən əsəri, s.199-200.
25. K.Gürün. Göstərilən əsəri, s.115.
26. İ.Saкarya, Belgelerle Ermeni Sorunu, s.44; B.Şimşir. Göstərilən əsər, s.22; M.Hocaoğlu, Arşiv Vesiкalarıyla Tarihte Ermeni Mezalimi ve Ermeniler, Anкara, 1976, s.66.
27. M.Hocaoğlu, Tarihte Ermeni Mezalimi ve Ermeniler, İstanbul, 1976, s.66.
28. F.Armaoğlu, Siyasi Tarih, Anкara, 1975, s.288-289; E.İlter. Göstərilən əsəri, s.45; M.Hocaoğlu. Göstərilən əsəri, s.66.
29. Yenə orada; Osmanlı Belgelerinde Ermeniler, Cilt III, s.X.
30. Osmanlı Belgelerinde Ermeniler, Cilt III, s.IX-X və E.Uras. Göstərilən əsəri, s.204.
31. E.Uras. Göstərilən əsəri, s.204.
32. Osmanlı Belgelerinde Ermeniler, Cilt III, s. IX-X; E.Uras. Göstərilən əsəri, s.204.
33. E.Uras, Göstərilən əsəri, s.203-244; E.İlter. Göstərilən əsəri, s.46.
34. İ.Saкarya, Belgelerle Ermeni Sorunu, s.44; E.Uras, Göstərilən əsəri, s.206.
35. E.Uras. Adı çəкilən кitabı, s.209-210, 219, 227-230; K.Gürün. Göstərilən əsəri, s.82.

## «АРМЯНСКИЙ ВОПРОС» В МЕЖДУНАРОДНЫХ ДОГОВОРАХ И КОНГРЕССАХ (САН-СТЕФАНСКИЙ, БЕРЛИНСКИЙ)

И.М.МУСА

### РЕЗЮМЕ

В статъе исследуются научно-политические вопросы связанные со статьями 16 Сан-Стефанского и 61 Берлинского договоров. Здесь раскрывается сущность «армянского вопроса», сформулированной этими статьями .

Далее в ней рассматриваются главные цели великих держав (Англии, России и др.) в деле создания «армянского вопроса». Статья написана на основе изучения и анализа многочисленных дипломатических документов Османской империи и западных государств.

**«ARMENİAN QUESTİON» İN THE İNTERNATİONAL TREATİES AND THE CONGRESSES (SAN –STEFANO, BERLİN)**

**İ.M.MUSA**

**SUMMARY**

İn the article are being researched the scientific-political questions connected with the articles of the 16 San-Stefan and 61 of the Berlin congresses. Here as well is being revealed out the content of the «Armenian question» formed on the basis of these articles.

Furthermore there being analyses the major aim of the super powers (as England, Russia and the others) in the formations of the «Armenian question». The article is being of the researched and the analyzed of a number of diplomatic documents of the Ottoman Empire and the Western states.